**2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 251 saylı müraciət üzrə**

# RƏYİ

Bakı şəhəri 20 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Cavidan Əlislam oğlunun həmin seçki dairəsi dairə seçki komissiyasının 52/173 saylı qərarını mübahisələndirərək qeydə alınmış namizəd Hacıyev Emin Məcid oğlunun Rusiya Federasiyası vətəndaşı olmasının, bu ölkə qarşısında öhdəliyinin olub-olmamasının araşdırılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş 17 fevral 2020-ci il tarixli 251 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m:**

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd C.Ə.Aslanov müraciətində 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Hacıyev Emin Məcid oğlunun Rusiya Federasiyasının vətəndaşı və bu ölkə qarşısında öhdəliyinin olmasını iddia etmişdir.

Dairə seçki komissiyasından C.Ə.Aslanovun müraciətinin araşdırılmasına dair mübahisələndirilən qərar və digər materiallar alınaraq araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, qeydə alınmış namizəd E.M.Hacıyevin Rusiya Federasiyasının vətəndaşı və bu ölkə qarşısında öhdəliyinin olub-olmamasının araşdırılması ilə əlaqədar dairə seçki komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət etmiş, iddia edilən bu hal nazirlik tərəfindən təsdiq edilməmişdir.

Araşdırma ilə əlaqədar E.M.Hacıyevin namizədliyinin qeydə alınmasına dair dairə seçki komissiyasına təqdim etdiyi sənədlərə baxış keçirilmiş və onun öz imzası ilə təsdiq etdiyi öhdəlik ərizəsində ikili vətəndaşlığının və başqa dövlət qarşısında öhdəliyinin olmadığını göstərməsi müəyyən edilmişdir.

Aparılan araşdırma ilə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi dairə seçki komissiyası qeydə alınmış namizəd E.M.Hacıyevin ikili vətəndaşlığının, başqa dövlət qaşısında öhdəliyinin olmaması ilə bağlı düzgün nəticəyə gələrək namizəd C.Ə.Aslanovun müraciətinin təmin olunmamasına dair qərar qəbul etmişdir.

Göstərilənlərə əsasən namizəd C.Ə.Aslanovun müraciətində qeyd olunanlar təsdiqini tapmadığından müraciətin təmin edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Konstitusiyasının 85-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci,112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 3-cü, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Cavidan Əlislam oğlunun 17 fevral 2020-ci il tarixli 251 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**